*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 aprel 2020-ci il № 27 (2445) Qiyməti 30 qəpik


## İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardım veriləcək

*Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 (min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bu Sərəncamın icrası məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılıb.

Maliyyə Nazirliyi həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin edəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə birdəfəlik maddi yardımın bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etmək tapşırılıb.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır



Səngərlərə doğru yol gedəgedə ucsuz-bucaqsız səmanı seyr edirəm. Səhər tezdən havanın gözü tutulub. Buludlar göydə lay-lay düzülüb. Hərdən yağış da yağır. Yaz qoxulu, bahar ətirli yağış. Bu yağışdan təkcə yazın qoxusu gəlmir, ondan həm də Böyük Qələbənin odlu-alovlu qoxusu gəlir. Getdiyimiz bu yollar, gözəlliyinə tamaşa etdiyimiz bu ərazilər ordumuz üçün çox böyük uğurlarla başa çatan Aprel döyüşləri zamanı erməni işğalçılarından azad edilib. Dörd il bundan əvvəl Lələtəpə istiqamətində gərgin döyüşlər gedirdi. Qəhrəmanlıq tariximizdə xüsusi yeri və çəkisi olan bu döyüşlərdə strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi erməni işğalçılarından azad edildi. Nəticədə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də düşmənin nəzarətindən çıxdı. Dörd ildir kənd sakinləri doğma ocaqlarına dönərək dədə-baba yurdlarında yaşayırlar. Getdikcə gücünü, qüdrətini artıran ordumuzun hissələri Cocuq Mərcanlı sakinlərinin təhlükəsizliyini göz bəbəkləri kimi qoruyurlar.

Dövlətimizin diqqət və qayğısı ilə gündən-günə gözəlləşən, böyüyüb abadlaşan yaşayış məntəqəsini keçəndən sonra yolumuz xeyli qısalır. Səngərə çatmağa az qalır. Yol bir az palçıqlı olduğundan sürücü avtomobili ehtiyatla sürür ki, bizi mənzil başına təhlükəsiz çatdırsın.

Səngərdən gələn torpaq ətri, torpaq qoxusu bizi də döyüş ovqatına kökləyir. Görüşdüyümüz, həmsöhbət olduğumuz əsgərlərin üz-gözündən cəsarət və igidlik yağır. Bu igidlik qələbəyə ünvanlanmış, uğura susamış igidlikdir. Söhbətləşdikcə hiss edirsən ki, bu cəsur zabit və əsgərlər qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazılmış Aprel zəfərindəki qəhrəmanların döyüş yollarını davam etdirməyə hazırdırlar. Yurdumuzun ayıq-sayıq keşikçiləri söhbətlərində daha çox bu mövzuya toxunurlar.

(Ardı 3-cü səhifədə)

# Müdafiə və ərzaq təhlükəsizliyinin təminatı davamlı inkişafın əsasıdır

*Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu sahədə görülən işlər Naxçıvan Muxtar Respublikasında da hərbi hissələrin maddi-texniki təminatının möhkəmləndirilməsinə və şəxsi heyətin döyüş hazırlığının artırılmasına səbəb olub. Hər il muxtar respublikada yeni xidmət və yaşayış komplekslərinin tikilməsi ilə yanaşı, həm də hərbi hissələr üçün müxtəlif təyinatlı avtomobil və texnikalar alınaraq istifadəyə verilir.*





Aprelin 23-də Naxçıvan Muxtar Respublikası büdcəsinin qənaəti hesabına alınmış 10 "Qazel" markalı yük, eləcə də "Ford" və "Volkswagen" markalı 2 minik avtomobili Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov avtomobillərə baxıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Bildirilib ki, yükgötürmə qabiliyyəti və manevr imkanları yüksək olan qənaətcil avtomobillərdən hərbi hissələrin təminatında istifadə olunacaqdır. Yeni avtomobillər muxtar respublikanın relyefinə uyğun olaraq istənilən şəraitdə xidməti fəaliyyətin təhlükəsiz və çevik təşkilinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yeni avtomobil və texnikaların təqdim olunması münasibətilə şəxsi heyəti təbrik edərək deyib: "Bu gün Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlər, xüsusilə hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi ordumuzun qüdrətini daha da artırır. Ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq muxtar respublikada da ordu quruculuğuna xüsusi diqqət yetirilir, ordu, birləşmə və hissələrin silah-sursat və texnika təminatı yaxşılaşdırılır, təlimlər keçirilir, şəxsi heyətin peşəkarlığı artırılır."

Ali Məclisin sədri deyib: "Döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün nəzərdə tutulan texnika və avtomobillərdən hərbi hissələrin gündəlik təminatında istifadə olunmamalıdır. Ona görə də muxtar respublikada hərbi hissələrin təminatının yaxşılaşdırılması diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası büdcəsinin qənaət olunan hissəsindən alınan yeni avtomobillər də hərbi hissələrdəki döyüş resurslarının qorunmasına və gündəlik təminatın həyata keçirilməsinə imkan verəcəkdir."

Ali Məclisin sədri yeni avtomobillərdən təyinata uyğun istifadə olunması barədə tapşırıqlar verib.

* * *

Ölkə Prezidenti cənab İlham Əliyev deyib: "...Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir. Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var".

Naxçıvan Muxtar Respublikasında inkişafı xarakterizə edən ən mühüm amillərdən biri də müdafiə təhlükəsizliyinin təmin olunmasıdır. Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin



döyüş qabiliyyətinin və peşəkarlığının artırılması istənilən tapşırığın uğurla yerinə yetirilməsinə imkan verir. Sədərək rayonunda yeni torpaq sahələrinin ordumuzun nəzarətinə keçməsi bunu bir daha təsdiq edir. Sabitlik və təhlükəsizlik isə insanların rahat yaşayışını təmin edir, ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində də torpaqlar əkilir, təsərrüfatlar inkişaf etdirilir, məskunlaşma artır. Artıq Sədərək rayonunda işğaldan azad edilən torpaqlar minalardan təmizlənərək əkin dövriyyəsinə qatılıb.

Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Sədərək rayonunda işğaldan azad edilmiş ərazilərdə olub, görülən işlərlə maraqlanıb.

Məlumat verilib ki, ərazidə müdafiənin dayanıqlığının təmin edilməsi üçün mühəndis maneələri sistemi yaradılıb və minalardan təmizlənib, hündürlüyü 5 metr, uzunluğu isə 7 kilometrdən artıq olan təhlükəsizlik bəndi çəkilib, ön mövqedə şəxsi heyətin xidməti şəraiti daha da yaxşılaşdırılıb. 73 hektar torpaq sahəsində meliorativ tədbirlər görülərək əkinə hazır vəziyyətə gətirilib, 1650 metr məsafədə yerləşən "Şirarxı" kanalı üzərində qurulmuş yeni nasos stansiyasından əraziyə su verilib, eləcə də mövcud 3 subartezian quyusu bərpa olunaraq 2500 metr boru xətti çəkilib. Həmçinin əraziyə yeni elektrik verilişi xətti çəkilərək subartezian nasosları və hərbi hissə üçün 2 transformator yarımstansiyası quraşdırılıb. Bu ilin yazından ərazidə əkin işlərinə başlanılıb, 38 hektar sahədə dən üçün qarğıdalı əkilib. Hazırda əkin davam etdirilir.

Ali Məclisin sədri bu işlərdə əməyi olanlara təşəkkür edərək deyib ki, həyata keçirilən tədbirlər nəticəsində illər öncə bu ərazilər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarətinə keçdi. "Ötən dövrdə ərazinin minalardan təmizlənməsinə başlanılmış, meliorativ tədbirlər görülmüş, nəzarətə keçən torpaqların 73 hektarı əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Hazırda ordumuz tərəfindən ərazilər tam nəzarət altında saxlanılır ki, bu da əkin işlərinin rahat şəkildə həyata keçirilməsinə imkan verir. Bundan sonra nəzarət altındakı digər ərazilərdə də işlər davam etdirilməli, minalardan təmizlənməli, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmalı, Sədərək rayonunun əkinəyararlı torpaqlarının sahəsi genişləndirilməlidir."

* * *

Naxçıvan Muxtar Respublikasında etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində son illər yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Bu tədbirlərin tərkib hissəsi kimi sərhəd və dağlıq bölgələrdə yerləşən hərbi hissələrdə müasir əsgəri-məişət komplekslərinin tikilməsi xidmətin hərtərəfli təşkilinə imkan verir.

Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydərabad qəsəbəsindəki əsgəri yaşayış kompleksində aparılan yenidənqurma işləri ilə maraqlanıb.

Məlumat verilib ki, ötən ildən başlayaraq əsgəri yaşayış kompleksində yenidənqurma işləri aparılıb. Ümumi sahəsi 1890 kvadratmetr olan 3 mərtəbəli binada 10 xidməti otaq, 160 yerlik əsgər yataqxanası, 16 yerlik zabit yataqxanası, 176 yerlik yeməkxana, mətbəx, kafe, idman otağı, taktiki sinif, silah otağı, əşya, ərzaq və silah anbarları, hamam-camaşırxana və qazanxana vardır. Binanın istilik sistemi yenilənib, döşəmə, qapı və pəncərələr dəyişdirilib, qazanxana, yeməkxana və mətbəx yenidən qurulub.

Şəxsi heyətlə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov deyib: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu ildə Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Sədərək rayonunda olmuş, döyüş mövqelərinin möhkəmləndirilməsi və ərazinin minalardan təmizlənməsi ilə bağlı tapşırıqlar vermişdir. Verilən tapşırıqların nəticəsi olaraq Sədərək rayonunda 75 hektara yaxın torpaq sahəsi minalardan təmizlənərək əkin dövriyyəsinə qatılmışdır."

Ali Məclisin sədri bütün bunların Azərbaycan Ordusunun şücaəti nəticəsində mümkün olduğunu bildirib, bu münasibətlə şəxsi heyətə təşəkkür edərək deyib: "Torpaq o zaman müqəddəsləşir ki, o həm qorunur, həm də əkilir. "Kitabi-Dədə Qorqud" dastanında da yazılır ki, "Torpağı əkmirsənsə qorumağına, qorumursansa əkməyinə dəyməz". Bu gün qürur hissi keçiririk ki, Sədərək rayonunda torpaqlar qorunur və əkilir. Bunlar ordumuzun və yerli strukturların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Əsgəri-məişət kompleksində yaradılan şərait də xidməti fəaliyyətin lazımi səviyyədə həyata keçirilməsinə imkan verir. Ona görə də şəxsi heyət xidməti vəzifələrini uğurla yerinə yetirməli, nizamnamələrin tələblərinə əməl etməlidir."

Ali Məclisin sədri ərazinin bundan sonra da etibarlı müdafiə olunacağına və qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə əminliyini bildirib.

Əsgər Məmməd Vəliyev şəxsi heyət adından minnətdarlıq edərək deyib: "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə əsgəri-yaşayış kompleksi əsaslı şəkildə yenidən qurularaq istifadəmizə verildi. Söz veririk ki, yaradılanları qoruyub saxlayacaq, qarşımıza qoyulan vəzifə və tapşırıqları layiqincə icra edəcəyik. Vətənimiz Azərbaycanın, qədim diyarımız Naxçıvanın müdafiəsini ayıq-sayıq şəkildə təmin edəcəyik."

Sonda şəxsi heyət "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

Gətirilmiş ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilib.

Ərazidə içməli su anbarı və kanalizasiya çökdürmə qurğusu quraşdırılıb. Binanın həyətində abadlıq işləri aparılıb, işıqlandırma sistemi qurulub, 2 hektara yaxın yaşıllıq salınıb.

* * *

Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Sədərək rayonunda müdafiənin ön xəttində olub, müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti və xidmətin təşkili ilə maraqlanıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev məlumat verib ki, şəxsi heyət əməliyyat-taktiki səviyyədə yüksək döyüş hazırlığına malikdir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, mövqelər arasında səmtləşmənin aparılması, bölmələr arasında rabitə əlaqəsinin qurulması və müşahidənin düzgün təşkili etibarlı müdafiə sistemi yaradıb. Dayaq məntəqələri və mövqelər müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub.

Ali Məclisin sədri müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirib, xidmətin təşkili, eləcə də döyüş hazırlığının və intizamın gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Ümummilli lider Heydər Əliyevin quruculuq və inkişaf xətti muxtar respublikanın davamlı inkişafını təmin edir. Ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması iqtisadiyyatın çoxşaxəli inkişafına, ən əsası isə makroiqtisadi göstəricilərin artmasına səbəb olub. İqtisadi artım dinamikası nəticəsində Naxçıvan Muxtar Respublikasının hər bir yaşayış məntəqəsində geniş quruculuq işləri aparılır. Vaxtilə işğal təhlükəsi yaşayan Sədərəkdə bu gün məskunlaşma artır, insanların rahat yaşayışı üçün kompleks tədbirlər görülür. Yeni torpaqların əkin dövriyyəsinə qatılması, içməli su və kanalizasiya sistemlərinin qurulması, müdafiənin möhkəmləndirilməsi Sədərək rayonunun timsalında Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir.

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır

(Əvvəli 1-ci səhifədə)

- Yurduna keşik çəkən zabitin, əsgərin ən başlıca vəzifəsi torpağı, Vətəni uğrunda vuruşmaqdır, döyüşməkdir, ölkəsinin ərazi bütövlüyünü düşmən təcavüzündən qorumaqdır. Torpağına, yurduna göz dikmiş düşməni məhv etməkdir, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Müzəffər Dünyamalıyev söhbətə başlayır. - Biz hərbçilər məhz buna görə burada dayanmışıq. Dayanmışıq ki, yurdumuzu erməni işğalçılarından qoruyaq. Aprel döyüşləri sübut etdi ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etmək iqtidarındadır. Daim gücünü artıran ordumuzun zabit və əsgərləri Aprel döyüşlərində böyük hünər və rəşadət göstərərək düşməni tutduqları və illərdən bəri möhkəmləndirdikləri mövqelərdən geri oturtdular. Erməni qəsbkarlarının səngərləri qısa müddət ərzində dəqiq atəş zərbələri ilə darmadağın edildi. Düşmən bu döyüşlərdə xeyli canlı qüvvəsini, zirehli texnikasını itirdi. Döyüşçülərimiz hünərlə, cəsarətlə vuruşdular. Çox böyük inamla deyə bilərik ki, Aprel döyüşləri xalqımızın qəhrəmanlıq tarixinin parlaq və şərəfli bir səhifəsidir. Biz qəhrəmanlığımızla, igidliyimizlə Ali Baş Komandanın rəhbərliyi altında Aprel zəfərini davam etdirməyə hər an hazırıq. Sələflərimizin döyüş yollarını davam etdirmək bizim üçün böyük şərəfdir.

Əsgər Saleh Şəfizadə ordu sıralarına ötən ilin yayında çağırılıb. Geridə qalan bu aylar ərzində Saleh silahların sirlərini dərindən öyrənib, döyüş vərdişlərinə yiyələnib. Artıq xeyli müddətdir sinəsinə sıxdığı silahla yurdumuzu erməni işğalçılarından qoruyur. Söhbətimiz zamanı əsgər Saleh Şəfizadə yaddaşlara zəfər tariximizin qəhrəmanlıq səhifəsi kimi əbədi həkk olunmuş Aprel döyüşlərindən böyük həvəslə söz açır:

- Ordumuzun şəxsi heyətinin böyük hünər və rəşadət göstərdiyi Aprel döyüşləri zamanı mən orta məktəbdə oxuyurdum. Cəmiyyətdə böyük coşqu və təntənə yaradan o günləri indiki kimi xatırlayıram. Hər gün televiziyadan ordumuzun cəbhədəki uğurları barədə yeni-yeni sevindirici xəbərlər eşidirdik. O günlərdə düşünürdüm ki, bir neçə ildən sonra mən də əsgər olacam və ön xətdə torpaqlarımızın keşiyini çəkəcəm. Bu sevinc dolu anları görmək və yaşamaq xoşbəxtliyi mənə də nəsib oldu. Budur, xeyli müddətdir ön xətdə xidmətdəyəm. Xidmətə başlayandan sonra Aprel döyüşlərinin iştirakçısı olmuş hərbçilərdən Azərbaycan əsgərinin bu döyüşlər zamanı nə qədər böyük hünər və qəhrəmanlıq göstərdiklərini öyrəndim. Çox sevindim, qürur duydum. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan əsgəri daha böyük igidlik və qəhrəmanlıq göstərməyə qadir və hazırdır. Hərdən erməni qəsbkarları atəşkəs rejimini pozmağa cəhd göstərir. İşğalçıların cəhdlərinin qarşısını qətiyyətlə və dəqiq atəş zərbələri ilə alırıq. Düşmən gücümüzü, qüdrətimizi görüb, hiss edən kimi geri çəkilir.



- Aprel döyüşlərinin baş verdiyi günlərdən dörd il keçir, - deyə əsgər Fərhad Kərimov söhbətə başlayır. - 2016-cı ilin aprel ayında Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri böyük hünər və rəşadət göstərərək erməni işğalçılarına sarsıdıcı və dəqiq zərbələr vurdular. Qanlı döyüşlər gedən günlərdə Azərbaycan Ordusunun şəxsi heyəti erməni qəsbkarlarını sıxışdırıb mövqelərindən geri qovdular. İllərdən bəri erməni qəsbkarlarının guya qüvvətli, məğlubedilməz olması haqqında dolaşan mif həmin günlər ayaqlar altında tapdalandı. Aprel zəfəri bir daha göstərdi ki, Azərbaycan Ordusu çox güclü və qüdrətlidir. Onun sıralarında mübariz ruhlu, qələbəyə, uğura köklənmiş döyüş hazırlığı yüksək olan zabit və əsgərlər xidmət edirlər. Güclü və dəqiq zərbələrdən burnu ovulan yağılardan böyük strateji əhəmiyyətə malik olan Lələtəpə, həmçinin Talış kəndi istiqamətindəki yüksəkliklər azad olundu. Aprel döyüşləri Azərbaycan xalqının Qələbəyə olan inamını artırdı. Ordumuzun beynəlxalq aləmdə nüfuzu yüksəldi. Ordumuz üçün uğurla başa çatan Aprel döyüşlərinin baş verdiyi gündən dörd illik zaman keçir. İndi biz daha güclü və daha qüdrətliyik. Bu qüdrətimizlə, gücümüzlə erməni qəsbkarlarını tez bir zamanda məğlub edəcəyik.

Əsgər Rəfxan Novruzov söhbət zamanı deyir ki, Vətənə əsgər olmağımdan qürur duyuram. “Bu, mənim üçün böyük şərəfdir. Torpaqlarımızı qorumağı xalqımız bizə tapşırıb. Biz əsgərlər də bu tapşırığı yüksək səviyyədə yerinə yetirməyə çalışırıq. Bu günlər Aprel zəfərinin ildönümünü yaşayırıq. Bu döyüşlərdə Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq və igidlik hər birimiz üçün nümunədir, örnək yeridir. Aprel zəfərini bütün cəmiyyət və vətəndaşlarımız yüksək dəyərləndirdilər. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərindən ətraflı söz açaraq deyib: "...Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. ...Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi." Ali Baş Komandan onu da qeyd edib ki, Aprel döyüşləri dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, vətənpərvərliyini nümayiş etdirdi.

“Fəxr edirəm ki, belə güclü və qüdrətli bir ordunun əsgəriyəm”, - deyə əsgər sözünə davam edir. - İstərdim ki, Aprel zəfərinin davamçılarından biri də mən olum. Təlim və məşqlərdə topladığım təcrübədən bacarıqla istifadə edərək sərrast atəşlə erməni qəsbkarlarını məhv edim.

Əsgərlərdən Rüfət Məmməd, Ağamusa Rəhimov, Samir Qasımov, Tacir Cəfərov, Fərid Nuruzadə və başqaları Aprel zəfərinin davamçılarından olmaq, igidlikləri ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazmaq istədiklərini dedilər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 aprel 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***28 aprel 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Silah və hərbi texnikanın yay istismar rejiminə keçirilməsi prosesi aparılır



Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində 2020-ci ilin döyüş hazırlığı planına əsasən silah, döyüş və xüsusi texnika yay mövsümündə istismar rejiminə keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş və xüsusi texnikanın yanacaq-sürtgü materialları hərbi hissələrdəki texniki xidmət məntəqələrində dəyişdirilir və onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

Silah, döyüş və xüsusi texnikanın yay mövsümündə istismar rejiminə keçirilməsində məqsədi hərbi hissələrin döyüş qabiliyyətinin artırılması, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılmasını təmin etməkdir.

# Kursantlar zirehli texnikanın məşq qurğularında çalışmalar yerinə yetirir



2020-ci ilin tədris proqramına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kursantların bilik və bacarıqlarının artırılması məqsədilə zirehli texnikanın məşq qurğularında çalışmalar yerinə yetirilir. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, proqram təminatı vasitəsi ilə müxtəlif hava şəraiti və coğrafi xüsusiyyətlərin təqlid edildiyi atəş şəhərciyində kursantlar PDM-2 məşq qurğularında sürücülük üzrə praktiki vərdişlərini təkmilləşdirirlər.

# “Dövlətin orduya diqqət və qayğısı pandemiya təhlükəsinə görə də çox yüksəkdir”

*Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq əməkdaşımız Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin xidmət rəisi polkovnik Eldəniz Yəhyayevin hərbi qulluqçuların qida rasionu, təminatı, o cümlədən ərzaqların saxlanması şəraiti ilə bağlı fikirlərini öyrənib.*

**- Cənab polkovnik, karantin şəraitində Müdafiə Nazirliyində Ərzaq Xidmətinin fəaliyyəti necə qurulub?**

- Koronavirusla qlobal miqyasda mübarizə aparılır. Pandemiyanın Azərbaycanda yayılmasının qarşısını almaq baxımından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamları müstəsna əhəmiyyətlidir. Bu sərəncamların tələbləri müvafiq olaraq Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığı və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə orduda da icra olunmağa başladı. Müdafiə nazirinin göstərişi ilə ərzaq bazalarına giriş və çıxış məhdudlaşdırıldı. İndi bu məsələləri karantin rejiminin tələblərinə uyğun olaraq daha ciddi nəzarətdə saxlayırıq. Belə ki, hərbi hissələrə daxil olan bütün hərbi avtomobillər, həmçinin təminedici şirkətlərin yük avtomobilləri dezinfeksiya edildikdən sonra anbarlara buraxılır. Eləcə də anbarlara daxil olan hər bir şəxsin temperaturu ölçülür, onlara əlcək və maska verilir. Həmçinin hərbi qulluqçuların ictimaiyyət arasına tez-tez çıxmaması, yoluxma hallarının qarşısının alınması məqsədilə bir sıra digər zəruri addımlar atılır. Bununla əlaqədar ərzaq məhsullarının natura halında verilməsi prosesi genişləndirilibdir. Bakı qarnizonunda xidmət edən hərbi qulluqçulara ərzaq payı natura şəklində verilir ki, bu da onların istər özlərinin, istərsə də ailə üzvlərinin virusa yoluxma ehtimalını kifayət qədər azaldır.

**- Ordu dövlət üçün həmişə prioritet olub. Belə bir gərgin şəraitdə də ordunun ərzaq təminatına xüsusi diqqət göstərilir...**



- Bəli, Azərbaycan Ordusunun ərzaq təminatı Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq normalar üzrə həyata keçirilir. Müddətli hərbi qulluqçulara və digər kontingentə dövlət hesabına ərzaq payı verilir. Zabitlərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına ərzaq payı və ya onların istəyinə uyğun olaraq pul kompensasiyası ödənilir.

Müvafiq normalara uyğun olaraq, Ərzaq Xidməti hər ilin sonunda növbəti il üçün sifarişlər hazırlayaraq Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinə təqdim edir. Sifarişlər hazırlanarkən normalara uyğun olaraq məhsulların çoxçeşidliliyinə diqqət yetirilir. Bunun nəticəsidir ki, hər il ərzaq anbarlarına 100 addan çox ərzaq daxil olur. Anbarlara ərzağın gətirilməsi və paylanması mərkəzləşmiş şəkildə aparılır. Ərzaq anbarına gətirilməli olan qidaların uyğunluq, gigiyena sertifikatları və əgər qida hər hansı xarici ölkədən gətirilirsə, onun radiasiya şüalanmasına qarşı aparılmış laborator sənədləri təminedici şirkətlər tərəfindən təqdim olunur. Gətirilən məhsullardan nümunələr Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasına təqdim olunur. Məhsulların keyfiyyəti laborator müayinələrlə tam yoxlanılır. Laboratoriya müsbət cavab verdikdən sonra ərzaq mərkəzi anbara, oradan da hərbi hissələrin təminatına göndərilir.

**- Ümumiyyətlə Azərbaycan Ordusunda ərzağın paylanması prosesi necə həyata keçirilir?**

- Ərzaq məhsullarının paylanması prosesində gigiyena və təmizliyə xüsusi diqqət yetirilir. Təminedici şirkətlərdən xüsusi vasitələr əldə edilərək qablaşdırma prosesi steril şəraitdə aparılır. Hazırda qida rasionunda əsas təminatda nəzərdə tutulan mal ətindən əlavə, toyuq əti, ət konservi, müxtəlif növ okean və dəniz balıqları var. Çoxçeşidliliyə diqqət yetirməklə yanaşı, ərzağın istifadə intensivliyinə də diqqət edirik ki, bu da tərəvəz məhsullarının verilməsi zamanı həyata keçirilir. Biz Nazirlər Kabinetinin müvafiq qərarında öz əksini tapan əvəzetmə normalarına uyğun olaraq bəzi az istifadə olunan tərəvəz məhsullarını müvafiq mütənasiblik gözlənilməklə daha çox işlədilən ərzaqlarla əvəzləmişik.

Onu da bildirim ki, ölkə rəhbərliyinin diqqət və qayğısının nəticəsidir ki, anbarlarımızda uzun müddət ordumuzu ərzaqla təmin edəcək ehtiyatımız var.

**- Pandemiya təhlükəsi ilə əlaqədar hərbi hissələrdə hansı qabaqlayıcı tədbirlər görülüb?**

- Hərbi hissələrdə ərzaq təminatı ilə məşğul olan bütün şəxsi heyət müntəzəm olaraq yoxlamadan keçirilir və istifadə olunan mətbəx avadanlıqları, şəxsi heyətin qidalandığı bütün qablar xüsusi məhlullarla yuyulur, dezinfeksiya olunur. Təhlükəsizliyi və təmizliyi tam təmin etmək üçün hərbi hissələrdə komandirlər nəzarət qrupları yaradıb. Bu qruplar şəxsi heyətin yeməkxanaya girişi zamanı əllərini spirt tərkibli antiseptik vasitələrlə dezinfeksiya etməsinə, eləcə də digər proseslərə ciddi nəzarət edir.

**-Bü gün əsgərlərin gündəlik qida rasionunda hər hansı dəyişikliklər mövcuddur?**

- Bildiyiniz kimi, immuniteti zəif olan insanlar koronavirus infeksiyasına daha tez yoluxurlar. Müdafiə nazirinin xüsusi göstərişinə əsasən, vitaminləşdirmə gücləndirilir, rasiona C vitamini ilə zəngin olan meyvə və tərəvəzlər daxil edilir. Təzə alma, sarımsaq, soğan, kələm və çuğundurdan istifadəyə xüsusi diqqət edirik. Nahar və şam yeməklərində təzə tərəvəzlərdən hazırlanmış salatlar da verilir.

Sonda vətəndaşlarımıza müraciət edərək bütün şəxsi heyət adından demək istəyirəm ki, biz onlar üçün Vətənin keşiyində dayanmışıq. Onlar da bizim üçün sağlamlıqlarının keşiyində dayansınlar.

**Söhbətləşdi:**
**kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan XİN Ermənistanın bəyanatına cavab verdi

Ermənistan XİN-in bu ölkənin 2018-ci ildən bəri münaqişənin mərhələli həllinə əsaslanan danışıqlar aparmadığını iddia edən açıqlaması, hətta bu bəyanatın yerli ictimaiyyəti sakitləşdirmək üçün verildiyi aydın olsa belə, çox gülüncdür. Ermənistan XİN-in dürüst şəkildə öz əhalisini münaqişənin həlli üzrə aparılan sülh prosesi barədə məlumatlandırması daha doğru olardı.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin şərhində bildirilir.

Qeyd olunur ki, 2018-ci ildə bu ölkədə hakimiyyət dəyişikliyi baş verəndən sonra Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri səviyyəsində sonuncu 21 aprel tarixli videokonfrans da daxil olmaqla 10 görüş keçirilib. Ermənistan XİN-in məntiqi ilə belə çıxır ki, iki ölkənin nazirləri, eləcə də 3 ölkənin həmsədrləri, habelə Xarici İşlər nazirlərinin heç bir işi yoxmuş kimi birgə vaxt keçirib söhbətləşmək üçün görüşüblər?!

Azərbaycanın münaqişənin həlli prosesi və danışıqların əsas prinsipləri barədə mövqeyi ən yüksək səviyyədə hər zaman səsləndirilib. Vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də mövqeyi onların verdikləri bəyanatlarda, o cümlədən 2019-cu il 9 mart tarixli bəyanatda açıq şəkildə ifadə olunub. Bunların hamısında münaqişənin mərhələli şəkildə həll olunması elementləri aydın şəkildə görünür.

Həmçinin danışıqlar eyni formatda və eyni gündəlik üzrə davam edir. Belə olmasaydı, 21 aprel tarixində məlum bəyanatını səsləndirən Ermənistan Xarici İşlər naziri bir neçə saat sonra videokonfransda iştirak edib müzakirələrə qatılmazdı.

Ermənistan Xarici İşlər nazirinin özünün də razılaşdırdığı kimi əhalisinin sülhə hazırlanması istiqamətində addımlar atması daha faydalı olar.

# Hərbi qulluqçulara pul əvəzinə ərzaq verilməsi davam edir













Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun şəxsi heyəti və onların ailə üzvlərinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, o cümlədən ərzaq təminatının gücləndirilməsi məqsədilə Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və müəssisələrdə bu istiqamətdə fəaliyyətlər davam etdirilir.

Qeyd edək ki, Azərbaycan Ordusunun ərzaq təminatı Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq normalar üzrə həyata keçirilir. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına və digər kontingentə ərzaq payı dövlət hesabına verilir. Hərbi hissələrdə şəxsi heyətin keyfiyyətli qidalanması, bişirilən yeməklərin çeşidinin artırılması ilə yanaşı, xüsusilə milli yeməklərin hazırlanmasına üstünlük verilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə atılan növbəti addımlardan biri də Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçulara pul əvəzinə ərzaq məhsullarının verilməsidir.

Ərzaq payı səbətinə müxtəlif çeşiddə və yüksək kaloridə qida məhsulları daxildir. Buraya mal əti, toyuq əti, ət və balıq konservləri, müxtəlif növ okean və dəniz balıqları, birinci növ buğda unu, müxtəlif yarmalar (qarabaşaq, düyü, bulqur), makaron, kərə və bitki yağları, təbii və qatılaşdırılmış süd, pendir, yumurta, kartof, soğan, şəkər tozu, cem, xörək duzu, çay, istiot, hazır xardal, quru göyərti, təbii meyvələr və meyvə quruları (ərik, kişmiş), sirkə, tomat pastası, eləcə də vitaminlər daxildir.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasında ərzaq məsullarının müayinəsi aparılır, ərzağın tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edilir.

# Təlimlər ordumuzu zəfərə doğru aparır

Son illər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qism, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilməkdədir. Təlimlərdə həm döyüş əməliyyatlarının planlaşdırılması üzrə qərargahların hazırlığı, həm də hərbi hissələrin taktiki fəaliyyətinin icrası üzrə praktiki vərdiş və bacarıqlar yoxlanılır.



Bu günlərdə belə təlimlərdən biri Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən, hava hücumundan müdafiə bölmələri tərəfindən həyata keçirilib.

S-300 "Favorit" zenit-raket komplekslərinin divizionları normativlərə uyğun olaraq marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra ediblər. Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi və şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetiriblər.

Ən çox diqqət çəkən məqam isə Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, müxtəlif təyinatlı pilotsuz uçuş aparatları (PUA) heyətlərinin təlim-məşq uçuşları yerinə yetirməsi olub. Təlim prosesində heyətlər əməliyyat-taktiki biliklərini artırıb, ən müasir trenajorlarda praktiki vərdişlərini təkmilləşdiriblər.

PUA heyətləri şərti düşmənin müdafiəsinin dərinliyindəki hədəfləri vaxtında və dəqiq aşkar etməklə qarşıya qoyulan tapşırıqları icra ediblər.

Bu günlərdə, həmçinin Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Mühəndis Qoşunlarının hissə və bölmələri ilə taktiki-xüsusi məşqlər də keçirilib. Çətin relyefli ərazidə şərti düşmənin hazırladığı mühəndis maneələrindən piyada və döyüş texnikası üçün keçidlər açılıb, kolon yolları hazırlanıb, su maneələri üzərində körpülər və bərələr qurulub. Bundan əlavə, hərbi mühəndislər ərazinin kəşfini aparıblar, tabel və əlaltı vasitələrdən istifadə etməklə partlayan və partlamayan mühəndis maneələri qurublar, eləcə də fortifikasiya qurğularını hazırlayıblar.

Son günlərdə Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, zirehli transportyorlar (ZTR) və digər təkərli döyüş maşınlarının ekipajlarının döyüş hazırlığı yüksəldilməsi də diqqətdə saxlanılıb.

Ümumqoşun poliqonlarının təlim nöqtələrində ZTR ekipajlarından ibarət şəxsi heyət atış hazırlığı üzrə normativləri yerinə yetiriblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrində taktiki təlim başlayıb.

Təlimin keçirilməsində əsas məqsəd Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması, həmçinin komandirlər, qərargahlar və şəxsi heyətin bacarıqlarının təkmilləşdirilməsidir.

Üç mərhələdə baş tutacaq təlimə 20-dən artıq gəmi və kater, 2 helikopter, o cümlədən 700 nəfərədək şəxsi heyət cəlb olunub.

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, təlim mərkəzləri və poliqonlarda tank-eleyhinə bölmələr ilə döyüş atışlı təlim məşqləri keçirilir.

Şəxsi heyət ərazidə açılma və atəş mövqelərinin tutulması, hədəflərin aşkar edilməsi, atəşin korrektə edilməsi, eləcə də atəş mövqelərinin çevik dəyişdirilməsi üzrə normativləri yerinə yetirirlər.

Ümumiyyətlə, keçirilən bütün təlim və məşqlərin əsas məqsədi zəhmət hesabına əldə edilən təcrübə sayəsində döyüş meydanında uğur qazanmaqdır. Gördüklərimiz onu deməyə əsas verir ki, tezliklə Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan əsgəri təlimdə çəkdiyi zəhmət hesabına döyüşdə zəfər qazanacaq!

**"Azərbaycan Ordusu"**

# Cəbhə bölgəsində bölmələrin döyüş növbətçiliyinə daxilolma mərasimi keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmələrin döyüş növbətçiliyinə daxilolma mərasimi keçirilib.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri döyüş növbətçiliyinə daxil olan bölmələri təbrik edib, onlara müvafiq tövsiyə və tapşırıqlarını verib.

Sonra döyüş hazırlığında ən yaxşı nəticələr göstərərək xüsusi fərqlənən hərbi qulluqçulara fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib. Döyüş növbətçiliyinə daxil olan hərbi qulluqçular nümunəvi xidmət göstərəcəklərini və düşmənə qarşı amansız olacaqlarını bildiriblər.

Sonda bölmələr təntənəli surətdə döyüş mövqelərinə yola salınıb.

# Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah məşqi keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissə qərargahları cəlb edilməklə ikipilləli birgə komanda-qərargah məşqi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, komanda-qərargah məşqində qərargah zabitlərinin vəzifə borclarını praktiki icra etməsinin, zabitlər arasında qarşılıqlı əvəzetmənin və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşmasının yoxlanılması məqsədi qarşıya qoyulub.

Müasir texniki vasitələr üzərindən sərəncamların çatdırılması, idarəetmənin müvəqqəti olaraq bir məntəqədən digərinə ötürülməsi və hərtərəfli təminatın təşkili üzrə qərargahların fəaliyyəti məşq edilib.

# "Harada olmağımızdan asılı olmayaraq Vətənimizin əsgəriyik"



Hər bir valideyn övladını sülh və əmin-amanlıq şəraitində böyütmək istəyir. Buna nail olmaq üçün isə güclü ordun, bugünkü münaqişədə dönüş yarada biləcək nizam-intizamlı, təcrübəli, savadlı şəxsi heyətin olmalıdır. Bu gün böyüdüb boya-başa çatdırdığımız övladlarımız sabah həmin ordunun əsgəri, Vətənimizin müdafiəçiləri olurlar. Beləliklə, hərbi xidmət hər birimizin həyatının ayrılmaz hissəsinə çevrilir. Ordunun əhəmiyyəti ondan ibarətdir ki, müstəqil həyata qədəm qoyan gənclərimiz layiqli vətəndaş kimi formalaşırlar.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Əsgərlərimizlə söhbətləşir, onların hərbi xidmət haqqında təəssüratlarını dinləyirik.

"Əsgəri xidmət sizə nə öyrətdi?" sualımızı ilk olaraq əsgər Qorxmaz Zeynalov cavablandırdı:

- Burada hərbi xidmətin nə qədər önəmli olduğunu anladım. Xidmət zamanı bir sıra insani keyfiyyətlərə yiyələndim. Ən əsası komandirlərimizin səyi nəticəsində hər birimiz hazırlıqlı döyüşçü kimi formalaşdıq. Hamımız üzərimizə düşən vəzifəni - Vətən torpaqlarının bizə əmanət olduğunu dərk edirik. Hər qarış torpağımızı qorumaq üçün əlimizdən gələni əsirgəmirik. Artıq xidmətimin xeyli hissəsi geridə qalıb. Hərbi xidmətə təzə başlayanda bir çox çətinliklərlə üzləşdik. Ancaq keçirilən məşğələlərdə hərbin sirlərini, təhkim olunan silah və texnikalar ilə davranış qaydalarını öyrəndik. Ordu sıralarına yeni qatılan silahdaşlarımıza intizamlı olmalarını, daim düşmənin bütün fəaliyyətlərini nəzarət altında saxlamalarını, hər an döyüşə hazır olmalarını tövsiyə edirəm. Düşünməsinlər ki, tərxis olduqsa, bir dəfəlik gedirik. Biz harada olmağımızdan asılı olmayaraq Vətənimizin əsgəriyik. Vətənimiz çağırdığı an onun müdafiəsinə qalxmağa, Azərbaycan əsgərinin yanında olmağa hazırıq. İnanırıq ki, Ali Baş Komandanımızın döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad edəcəyik.

Əsgər Bəhman Xudaverdiyev hərbi xidmətdə qazandığı dostlarından danışaraq dedi ki, silah



dostu ömür dostudur. "Xidmətimi tezliklə başa vuracağıma həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ki, tezliklə ailəmin yanına qayıdacağam, təsərrüfat işlərində valideynlərimə kömək edəcəyəm. Kədərlənirəm ki, burada olan dostlarımdan, komandirlərimdən ayrı düşəcəyəm. Ancaq bu ayrılıq müvəqqətidir. Mütəmadi onlarla əlaqə saxlayacam. Çalışacam ki, hər zaman onların yanlarında olum. İnanıram ki, bizim dostluğumuz illərin sınaqlarında daha da möhkəmlənəcək. İnşallah, bizim dostluğumuz övladlarımızın dostluğuna çevrilər. Əsgəri xidmətə gəlməzdən əvvəl bir yuxu görmüşdüm. Yuxuda gördüm ki, dostlarımla Şuşanın qala divarlarının yanında oturub söhbət edirik. Həmin yerlərin gözəlliyini şəkillərdə, video-lentlərdə görmüşəm. İnanıram ki, yuxum tezliklə çin olacaq, evlərindən didərgin düşən soydaşlarımız doğma el-obalarına geri dönəcəklər.

- Hərbi xidmət cəsur olmağı, dostluğa sadiq qalmağı, üzərimizə düşən vəzifəyə məsuliyyətlə yanaşmağı aşılayır, - deyə əsgər Cavidan Qəmbərov söhbətə başladı. - Komandirlərimizin diqqət və qayğısı nəticəsində hərbi incəlikləri dərindən mənimsədik. Məşğələlərdə mənimsədiyimiz nəzəri bilikləri təlim və çöl dərslərində möhkəmləndirdik. Bu gün hər birimiz döyüşə hazırıq. Hərbi



hissəmizdə yaradılan şərait ürəkaçandı. Düşmənlə üzbəüz mövqedə dayanmağımıza baxmayaraq, hər cür şəraitimiz var. Heç nəyə ehtiyacımız yoxdur. Bizlərə yalnız Vətənimizə layiqli xidmət etmək qalır. Vətənimizi göz bəbəyimiz kimi qorumağa, düşmənin istənilən həmləsini dəf etməyə, Ali Baş Komandanımızın və xalqımızın bizə olan inamını doğrultmağa hər an hazırıq!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Müasir ümummilli liderimiz Heydər Əliyevin əsəridir.**

*Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir*

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri var. Tarix göstərir ki, xalq üçün yaşayanlar, qurub-yaradanlar, həyatlarını onun yolunda məşəl kimi yandıranlar ölmürlər, millətlə və xalqla birlikdə əbədi ömür sürürlər. Heydər Əliyevin ömrü məhz bu cür məşəl kimi yanan həyatın bariz timsalı idi. Azərbaycan xalqı Heydər Əliyevi yetişdirdiyi kimi, Heydər Əliyev də müasir Azərbaycan dövlətçiliyini yetişdirmiş, qabaqcıl, demokratik Azərbaycan Respublikası səviyyəsinə gətirmişdi. Ulu Öndərimiz həmişə deyirdi ki, milli ruhu və milli varlığı müdafiə, eyni zamanda, mühafizə etməyin, milli maraqları gerçəkləşdirməyin ən uğurlu forması müstəqil milli dövlətdir. Odur ki, Ulu Öndər milli-mənəvi dəyərlərlə yanaşı, milli dövlətçiliyin də qorunmasını, inkişafını və dünyaya inteqrasiyasını siyasi fəaliyyətinin əsas hədəfləri hesab etmiş, özünün mənalı ömrünü bütünlüklə bu məqsədlərə həsr etmişdir.

Bu gün ümummilli lider Heydər Əliyev cismən aramızda olmasa da, əbədiyyətə qovuşsa da, ruhən bizimlədir - onun yüksək amalları, qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası yaşayır və inkişaf edir. Artıq bütün dünyaya bəllidir ki, Azərbaycan xalqı - Heydər Əliyev birliyi tarixin bütün sınaqlarından keçməyə qadirdir və əbədidir.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə ümummilli lider Heydər Əliyevin xidmətləridir.

İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Ümummilli lider Heydər Əliyev torpağı şəxsi mülkiyyətə verməklə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

*Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Ulu Öndərin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Dahi Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz ulu öndər Heydər Əliyevin fəaliyyətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həmçinin iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən təcrübəli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. Həmin dövrdə Azərbaycanın silahlı qüvvələrinin böyük bir hissəsi ayrı-ayrı cinayətkar əllərdə cəmləşərək siyasi məqsədlərə ölkə daxili çəkişmələrə, hakimiyyət uğrunda mübarizələrə cəlb edildiyi üçün, Vətən torpağı müdafiəsiz qalmış, ərazilərimiz işğal olmuşdu. İlk növbədə, bu qeyri-qanuni silahlı dəstələr buraxıldı, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə alındı. Uzun sürən daxili çəkişmələrdən sonra ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Heydər Əliyev uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan Ordusunun əks hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda iqtisadi tənəzzül cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı. Bu gün hamıya aydındır ki, o zaman müdrik dövlət başçımız tərəfindən bu taleyüklü addımlar atılmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı.

Bundan ötrü dünya miqyasında qəbul olunan və tətbiq olunan bütün variantları öyrənmək, onlardan bəhrələnməyi bacarmaq lazım idi. Ümummilli Liderimiz dövlətimizə fayda verə biləcək bütün mütərəqqi ideyaları Azərbaycanın reallığını nəzərə alaraq, ardıcıllıqla həyata keçirirdi. Azərbaycanı düçar olduğu bəlalardan qurtarmaq və onu dünyanın sivil ölkələri sırasına çıxarmaq üçün o, öz nadir intellektindən və tükənməz enerjisindən məharətlə istifadə edirdi. Bu bir həqiqətdir ki, millətin gücü və nüfuzu onu təmsil edən rəhbərin şəxsiyyətindən, diplomatiyasının səviyyəsindən birbaşa asılıdır. Dünyanın aparıcı dövlətlərinin respublikamıza marağı bir tərəfdən onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ilə əlaqədar idisə, digər tərəfdən Ümummilli Liderimizin yürütdüyü praqmatik və iqtisadi cəhətdən perspektivli siyasətlə, bu siyasətin yaratdığı ictimai-siyasi sabitliklə bağlı idi. Artıq siyasi və iqtisadi islahatların aparılması və respublikamızın dünya birliyinə inteqrasiya olunması üçün hüquqi baza - konstitusiya yaradılmışdı. Azərbaycan ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə mütərəqqi beynəlxalq təcrübəyə əsaslanıb gələcəyə doğru inamla addımlayırdı.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Ümummilli lider Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. Ulu Öndərin ölkəmizin sürəkli tərəqqisini təmin edən irimiqyaslı proqramları bu gün də xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsi yad edilib



*Müdafiə nazirinin tapşırığına əsasən, hərbi qulluqçular Şəhidlər xiyabanında dəfn olunmuş Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun məzarını ziyarət ediblər.*

Sonra Milli Qəhrəmanın Bakının Nərimanov rayonu ərazisində ucaldılmış abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edənlər A.Aqarunovun şərəfli həyat yolu, onun döyüşlərdə iştirakını bir daha xatırlayıblar. Bildirilib ki, ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi, yəhudi əsilli bu qəhrəman da Azərbaycanı öz Vətəni bilmiş, həyatını onun müstəqilliyi və suverenliyi uğrunda fəda etmişdir.



Qeyd edək ki, Dağlıq Qarabağda döyüşlər başlayarkən könüllü olaraq cəbhəyə yollanan A.Aqarunov 1992-ci il mayın 8-də Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

**"Azərbaycan Ordusu"**

# Hərbi liseyin yaranmasının 49-cu ildönümü qeyd edilib

*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranması münasibətilə hərbi təhsil ocağında tədbir keçirildi. Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni oxundu.*

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov təhsil ocağının yaranmasından söz açaraq dedi:

- Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin həyatında əlamətdar gündür. Əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyulmuş hərbi tədris ocağı artıq özünün 49 illik yubileyini qeyd edir. Məktəb fəaliyyətdə olduğu müddətdə yüzlərlə peşəkar hərbçi hazırlayıb. Sovet rejimi dövründə milli zabit kadrların hazırlanmasına yönəldilmiş təşəbbüs böyük cəsarət və qətiyyət tələb edirdi. Kommunist ideologiyasının hakim olduğu bir məmləkətdə bu məsuliyyəti heç kəs öhdəsinə götürməyə risk etməzdi. Bu təşəbbüs yalnız xalqının gələcəyini düşünən, millətinə qəlbən bağlı olan, həyatını Vətəninin çiçəklənməsinə həsr edən dahi şəxsiyyət tərəfindən atıla bilərdi.

Hakimiyyətə gəldiyi gündən ulu öndər Heydər Əliyevi düşündürən əsas məqamlardan biri də gənclərin hərbi məktəblərə cəlb edilməsi məsələsi olubdur. Gənclərimizi hərbi məktəblərə hazırlamaq məqsədilə respublikada hərbi təyinatlı orta internat məktəbi yaratmağın da vaxtı çatmışdı. Belə bir təhsil ocağının yaradılması Azərbaycanın gələcəyi üçün çox mühüm hadisə ola bilərdi. Burada azərbaycanlı gənclər rus dilini mükəmməl öyrənə, ibtidai hərbi biliklərə yiyələnə və asanlıqla ali hərbi məktəblərə daxil ola bilərdilər. Ulu öndər Heydər Əliyev həmin məktəbin necə olacağını, fəaliyyətinin əsas xüsusiyyətləri barədə də öz fikirlərini bildirib və tez bir zamanda bu istiqamətdə işlərin görülməsi üçün həm Maarif nazirinə tapşırıqlar verib, həm də Moskvanın müdaxilə etməməsi üçün təşəbbüsün aşağıdan - Maarif



Nazirliyindən gəlməsinə şərait yaradıb.

Ümummilli lider Heydər Əliyev xalqımızın böyük sərkərdəsi, Azərbaycan milli diviziyasının ilk komandiri olmuş general Cəmşid Naxçıvanskinin anadan olmasının 75 illiyi ilə əlaqədar Respublika Hərbi Komissarlığı tərəfindən Mərkəzi Komitəyə müraciət etməyi tapşırıb və həmin müraciətə əsasən Azərbaycan KP MK bürosunun qərarının verilməsinə nail olubdur.

Hazırda Silahlı Qüvvələrimizin əsasını təşkil edən zabit korpusunun əksəriyyəti bu hərbi təhsil ocağının məzunlarıdır. Deməli olar ki, C.Naxçıvanski adına Hərbi Lisey öz yaradıcısı və memarının arzularına uyğun olaraq müasir dünya standartlarına cavab verən təhsil ocağına çevrilib. Fəaliyyəti dövründə Hərbi liseyi minlərlə məzun bitirərək müxtəlif hərbi ixtisaslar üzrə respublikamızda və ölkəmizin hüdudlarından kənarda yerləşən ali hərbi məktəblərdə təhsillərini davam etdiriblər.

C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri müstəqil Azərbaycan Respublikasına sədaqətlə xidmət edərək dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi, dövlətçiliyi naminə canlarını və canları-nı əsirgəməyiblər. Azərbaycan Respublikasının Milli Qəhrəmanlarından 10 nəfərindən çoxu C.Naxçıvanski adına Hərbi Liseyin məzunu, 1 nəfəri isə Hərbi liseyin zabiti olub. Dərin hörmət və ehtiramla yad etdiyimiz şəhid Milli Qəhrəmanlarımız Rasim İbrahimov, Əfqan Hüseynov, Elşad Əhədov, Mətləb Quliyev, Eldar Məmmədov, Çingiz Babayev, Cəlil Səfərov, Murad Mirzəyev də o igidlərin sırasındadır.

Bu gün də məktəbimiz peşəkar hərbi kadrların hazırlanması istiqamətində fəaliyyətini davam etdirir. Liseyimizdə tikilən yeni tədris korpusu, aparılan əsaslı təmir-tikinti işləri, məktəbin maddi-texniki bazasının gücləndirilməsi, tədris prosesinin müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilməsi Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuza olan diqqət və qayğısının bariz nümunəsidir.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi göstərişi ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə aparılmış təmir-tikinti, həmçinin yenidənqurma işləri tədris və təhsilin keyfiyyətinin yüksəlməsinə, şəxsi heyətin və pedaqoji kollektivin iş şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Əminəm ki, Hərbi liseydə xidmət edən hərbçilər və müxtəlif kateqoriyalardan olan mülki qulluqçular, burada təhsil alan kursantlar ulu öndər Heydər Əliyev ideyalarına həmişə sadiq qalaraq Silahlı Qüvvələrimiz üçün peşəkar zabit kadrlarının hazırlanmasında üzərlərinə düşən vəzifələri şərəf və məsuliyyətlə yerinə yetirəcəklər.

C.Naxçıvanski adına Hərbi Liseyin zabiti polkovnik Saday Balayev çıxış edərək şəxsi heyəti təbrik etdi, onlara uğurlar arzuladı.

Kursantlar adından çıxış edən Vüsal Mövsümlü bildirdi ki, biz hərbi biliklərə dərindən yiyələnərək sələflərimizin yolunu uğurla davam etdirəcəyik.

Kursant Rəşadət Həsənov şairə Gülsədə Amanın lisey gününə həsr etdiyi "Dünən müdavim idim - bu gün general" şeirini söylədi.

C.Naxçıvanski adına Hərbi Lisey rəisinin əmri ilə təhsildə fərqlənən kursantlar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Tədbir konsert proqramı ilə davam etdi.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## "Sülh çeşməsi" əməliyyatlarının aparıldığı bölgədə 20 terrorçu zərərsizləşdirilib



Suriya ərazisində PKK, YPG terror təşkilatlarının 20 terrorçusu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd edilib ki, terrorçular Türk Silahlı Qüvvələri tərəfindən "Sülh çeşməsi" antiterror əməliyyatlarının aparıldığı bölgəyə keçmək istəyərkən məhv ediliblər.

## İranın hərbi peykini ABŞ birmənalı qarşılamayıb



İranın "Nur" hərbi peykinin fəzaya buraxılması anından 90 dəqiqə sonra peykdən siqnal daxil olub.

Bu sözləri İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Sepah) Hərbi Kosmik Qüvvələrinin komandanı, general Əmirəli Hacızadə deyib.

O bildirib ki, peyk Yer kürəsi ətrafında 3 dəfə dövr edib və elə 3 dəfə də ABŞ üzərindən keçib. General nəzərə çatdırıb ki, peykdən qiymətli foto və video materiallar alınıb. Onun sözlərinə görə, İran artıq fəzaya hərbi raket buraxmaq təcrübəsinə malikdir və istədiyi zaman bunu təkrarlaya bilər.

Lakin İranın bu addımı ABŞ tərəfindən birmənalı qarşılanmayıb. ABŞ Dövlət Departamentinin mətbuat katibi Morqan Ortequs Vaşinqtonda keçirdiyi mətbuat konfransında deyib ki, rəsmi Vaşinqton bu məsələni BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxaracaq. Çünki İranın fəzaya hərbi peyk buraxması BMT-nin 2231 saylı qətnaməsinə ziddir.

## Fransa Müdafiə Nazirliyi ordu üçün xlorokin dərmanı alıb




Fransa Müdafiə Nazirliyi ordu üçün COVID-19 virusuna qarşı mübarizə məqsədilə xlorokin əsaslı dərman alıb.

Nazirlik bunun ehtiyat alışı olduğunu təsdiqləyib. Bildirilib ki, bir neçə həftədir Fransada COVID-19 epidemiyasına qarşı mübarizədə böyük müzakirələrə səbəb olan bu dərmanın səmərəliliyi səhiyyə rəhbərliyi tərəfindən təsdiqlənib.

Xlorokin (və ya hidroksixlorokin və azitromisin antibiotikindən ibarət) əsasında müalicə COVID-19 epidemiyası başlayandan Marseldən olan professor Raul Didye, eləcə də digər tibbi tədqiqatçılar tərəfindən səmərəli müalicə kimi qeyd olunub.

Müdafiə Nazirliyi 15-i reanimasiyada olmaqla 1500 hərbçinin COVID-19 virusuna yoluxduğunu bildirib.

Xatırladaq ki, Charles-de-Gaulle təyyarədaşıyan hərbi gəmisinin göyərtəsində də mindən çox hərbi dənizçidə COVID-19 virusu aşkarlanıb.

## İranda üç yeni PUA hərbi dəniz qüvvələrinin istifadəsinə verilib



İran müdafiə sənayesinin istehsal etdiyi üç yeni pilotsuz uçan aparat hərbi dəniz qüvvələrinin istifadəsinə verilib.

Bu münasibətlə keçirilən tədbirdə iştirak edən İranın Müdafiə naziri, general Əmir Xatəmi PUA-nın texniki və taktiki xüsusiyyətlərindən danışıb. Qeyd olunub ki, bu PUA çoxfunksiyalıdır. Aparatlar həm kəşfiyyat, həm də bombardmançı kimi istifadə edilə bilər. Belə ki, PUA düşmən ərazisi üzərində uçarkən foto və video çəkib mərkəzə göndərməklə yanaşı, həm də hərbi obyekti bombalamaq imkanına malikdir.

**AZƏRTAC-ın materialları əsasında**



# Hərbi qulluqçuların qanvermə aksiyasında iştirakı davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı yaradılması təşəbbüsünə qoşulan Müdafiə Nazirliyinin hərbi qulluqçularının aksiyada iştirakı davam edir.

Yığılan qan ehtiyatı yoxlanıldıqdan və sertifikatlaşdırıldıqdan sonra Respublika Talassemiya Mərkəzinə təhvil veriləcək.

# Azərbaycan Ordusunda “Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri” müsabiqəsi keçirilir

2020-ci il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində keçirilən müsabiqənin məqsədi hərbi qulluqçularla ideoloji işin düzgün aparılması qaydalarının öyrədilməsi, onların milli mənəvi dəyərlər və azərbaycançılıq ideyası ruhunda tərbiyə edilməsi, döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsi, döyüş tapşırıqlarının yerinə yetirilməsində hüquqi qaydalara riayət olunması və hərbi intizamın daha da möhkəmləndirilməsində şəxsi məsuliyyət hissinin vacibliyinin çatdırılması, eləcə də bu sahələrdə qabaqcıl təcrübənin təbliğidir.




Birinci mərhələ üzrə hərbi hissələrdə qaliblər müəyyən edilərək mükafatlandırılıb. Yekun mərhələdə isə xüsusi komissiya tərəfindən müsabiqənin qalibləri müəyyən ediləcək.

# Göstərilən diqqətə görə minnətdaram!

*Bu günlərdə Müdafiə Nazirliyinin bir qrup nümayəndəsi 25 ildən artıq Hərbi Nəşriyyatda çalışan Rəna Mahmudovanı 70 illik yubileyi münasibətilə evində ziyarət edib.*

Nümayəndə heyəti Rəna Mahmudovanı ad günü münasibətilə təbrik edib, ona cansağlığı və uzun ömür arzulayıb. Onlar Müdafiə Nazirliyi rəhbərliyi adından yubilyara ünvanlanan təbrik məktubunu, əmək veteranı vəsiqəsini, nazirliyin Həmkarlar İttifaqı Komitəsinin pul mükafatını və evdə qal kampaniyası çərçivəsində həyata keçirilən ərzaq yardımını R.Mahmudovaya təqdim ediblər.

Qeyd edək ki, Rəna Mahmudova Hərbi Nəşriyyat yarandığı gündən kollektivə daxil olan ilk işçilərdən biri olub. O, zəhməti və işgüzarlığı ilə birinci gündən kollektivin rəğbətini qazanıb, verilən tapşırıqların operativ, cəld yerinə yetirilməsində göstərdiyi əmək nümunələri ilə də daima digər işçilərə örnək kimi göstərilib. Bu illər ərzində hər kəs onu vətənpərvər bir xanım, təcrübəli mətbəə işçisi kimi tanıyıb. Bu gün Rəna xanımın yetirmələri onun işini müəssisədə uğurla davam etdirirlər. Əmək veteranı sıralarına daxil olan R.Mahmudova elə bu hərbi müəssisədən də təqaüdə çıxıb.



R.Mahmudova göstərilən hərtərəfli diqqətə görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirərək, bu gün bütün dünyanı cənginə alan yeni tip koronavirusdan Azərbaycanımızı, Vətənimizi qorumaq üçün ölkə rəhbərinin atdığı addımlardan danışıb: "Prezidentimizin planeti qorxuya salan bu pandemiyanın ölkəmizdə yayılmasına qarşı həyata keçirdiyi qabaqlayıcı tədbirlər xalqımız tərəfindən alqışlanır. Hər bir Azərbaycan vətəndaşı Prezidentimizin atdığı bu addımları dəstəkləyir. Bütün bunlara görə dövlətimizin müdrik, uzaqgörən rəhbərinə minnətdarıq! Dövlət rəhbərimizin "Biz birlikdə güclüyük" çağırışı bütün Azərbaycan xalqını onun ətrafında səfərbər etdi."

Müharibə və əmək veteranlarına Azərbaycan Prezidentinin daima diqqət və qayğısını qeyd edən Rəna xanım illər işlədiyi hərbi müəssisədən təqaüdə göndərilməsinin həm sevincini, həm də kədərini yaşadığını deyib: "Sevincliyəm ona görə ki, illərlə gərgin əmək sərf etdiyim, zəhmət çəkdiyim işimdən təqaüdə çıxıram, həm də davamçılarım var. Kədərliyəm ona görə ki, 25 ildən artıq çalışdığım kollektivdən ayrılıram. Hərbi Həşriyyat yarandığı ilk gündən burada çalışmışam. Sovet dönəmindən qalan köhnə çap dəzgahları ilə də işləmişəm, ən müasir nəşriyyat avadanlıqları ilə də. Xidməti nəşrlərin yüksək poliqrafik səviyyədə çap edilərək, tez bir zamanda, bəzən təcili olaraq sifarişçilərə çatdırılmasında 25 ildən artıq çalışdığım Hərbi Nəşriyyatın əməksevər kollektivinin böyük rolu olub. Kollektiv olaraq ordumuzun şəxsi heyətinin zəruri çap məhsulları ilə təmin olunması üçün heç bir zaman səyimizi, bacarığımızı əsirgəməmişik. Ötən il 25 illiyini qeyd etdiyimiz Hərbi Nəşriyyat çətin, lakin şərəfli bir yol keçib. Hər zaman ordu rəhbərliyinin, şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqəti sayəsində müəssisəmizin maddi-texniki bazası ilbəil gücləndirilir. Ən müasir çap maşınları, nəşriyyat avadanlıqları alınıb. Hətta 2017-ci ilin sonlarında ordu rəhbərliyi Hərbi Nəşriyyata gələrək kollektivlə görüşdü, yeni çap avadanlıqları ilə tanış oldu. Bir əməkdaş kimi bunlar məni çox sevindirdi. Sonda bir daha mənə göstərilən diqqətə görə hər kəsə minnətdarlığımı bildirirəm."

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Dünya tarixində yer alan xəstəliklər

Keçən ilin sonlarında yayılmağa başlayan COVID-19 koronavirus pandemiyası bəşəriyyətin diqqətini özünə cəlb etməyi bacardı. Qısa bir zaman ərzində sərhədləri aşaraq dünya üçün təhdid rolunu oynadı. Lakin tarixə nəzər saldıqda bu virusun qarşılaşdığımız ilk belə hallardan olmadığını görə bilərik. Eramızdan əvvəl 431-ci ildə Peloponnes müharibəsində yeni yaranan virus sayəsində döyüşçülər ağır xəstəliklə qarşılaşırlar. Afina divarlarının sərhədlərini aşan bu virus dünyanın bir çox ölkələrinə yayıldı. Simptonları qızdırma, susuzluq, qırmızı dəri səpkiləri idi. Virus afinalıları o qədər zəiflədir ki, onlar spartalılara məğlub olurlar.

Eramızın 541-ci ilində daha bir virus - jüstinyen virusu yayılmağa başladı. İlk olaraq Misirdə yayılan jüstinyen sonradan Bizans imperiyası və regionun bir çox dövlətlərini əhatə etdi. İnsanlar bunu Allahın qəzəbi olduğuna inanırdılar.

Sarıhumma virusu ağır ağciyər xəstəliyi və qızdırmayla nəticələnən viruslardan biridir. Qripə bənzər əlamətləri ilə diqqət çəkən virus ilk dəfə XVIII əsrin əvvəllərində İtaliya, Fransa, İspaniya və İngiltərədə görünməyə başladı.

Bu İspaniyanın qarşılaşacağı sonuncu qrip deyildi. 1918-ci ilin payızında pik həddə çatan İspan qripi I Dünya müharibəsində çox sayda itkilərə səbəb oldu. Amma savaşan tərəflər problemi qabartmağa və ya onu həll etməyə tələsmirdilər. İspan krallığının informasiya agentliyi real statistikanı açıqlayaraq epidemiyanın nə qədər ağır və təhlükəli olduğunu dünya ictimaiyyətinə çatdırmağı bacardı. Epidemiyanın tarixdə adı "İspan qripi" olaraq qaldı. Müxtəlif hesablamalara görə, qısa müddətdə Avropanı, Amerikanı, hətta Yaponiya və Sakit okean adalarını bürüyən infeksiya yüz milyona yaxın insanın həyatına son qoydu. Bəlanın ilkin əlamətləri qripi xatırlatsa da, yoluxanlar axşama qan öskürür, iki-üç gündən sonra isə həyatlarını itirirdilər. Adi hallarda uşaq və zəif qocalar qurbana çevrilirdilərsə, "İspan qripinə" yoluxanların əksəriyyəti 18-40 yaş arası sosial qrup idi. Üstündən yüz iki il keçməsinə baxmayaraq hələ də bu virusun vaksinası tapılmayıb.

Sadalanan bu hallar dünya tarixinin rastlaşdığı bəlaların sadəcə kiçik qismidir. Bu gün sevindirici haldır ki, koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda ölüm halları digər ölkələrlə müqayisədə dəfələrlə azdır. Sağalanların sayı isə durmadan artır. Digər vacib məqam da odur ki, Azərbaycan Ordusunda xidmət edən əsgər və zabitlərdə bu virusun göstəriciləri tapılmayıb. Tezliklə bu infeksiya sadalanan xəstəliklər kimi tarixə qovuşacaq. Bizə düşən sadəcə evdə oturmaq, xəstəliyin yayılması riskini minimuma endirməkdir.

**Hüsniyyə İDRİSOVA,
BSU-nun III kurs tələbəsi**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Əmişov Səttar Ağaməmməd oğluna və əsgər Cəfərov Rahid Güloğlan oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 230
Nüsxə 3900